UOT: 33.63.327.633/644

# BEYNƏLXALQ NƏQLİYYAT DƏHLİZLƏRİNİN KƏND TƏSƏRRÜFATI MƏHSULLARININ BAZARA ÇIXARILMASINA TƏSİRİ


**Ayhan Seyit oğlu Satıcı**
*Azərbaycan Dövlət İqtisad Universiteti, doktorant*
*Email: asatiji2019@gmail.com, Tel.: +994 50 786 86 84*
*ORCID: 0009-0002-8649-8796*



## Xülasə

*Kənd təsərrüfatı milli iqtisadiyyatın çox mühüm sahəsi olaraq regional inkişaf, ərzaq təminatı və təhlükəsizliyi, məşğulluğun təmin olunması və s. kimi istiqamətlərdə vacib əhəmiyyət kəsb edir. Bu sahə cəmiyyətin gündəlik normal yaşayışının əsasını təşkil etməklə, həm də riskli sahələrdən biri hesab edilir. Əsasən yaş və tez xarab olan kənd təsərrüfatı məhsullarının istehsalı ilə yanaşı, satışı, saxlanması da xüsusi yanaşma tələb edir. Ölkəmizin qoşulduğu beynəlxalq nəqliyyat dəhlizləri kənd təsərrüfatı məhsullarının daxili və xarici bazarlara çıxarılmasında xüsusi əhəmiyyət kəsb edir. Aydındır ki, səmərəli və çevik satış uzunmüddətli və rentabelli istehsal üçün əsasdır. Bu baxımdan da beynəlxalq nəqliyyat dəhlizlərinin kənd təsərrüfatı məhsullarının ixracına təsirləri ekonometrik qiymətləndirilib. İnfrastruktur investisiyalarının kənd təsərrüfatı məhsullarının ixracı üçün daha önəmli olması əsaslandırılıb ki, bu da, daha çox kənd təsərrüfatı məhsullarının xüsusi saxlama və daşıma qaydaları tələb etməsi ilə bağlıdır. Məqalənin sonunda kənd təsərrüfatı məhsullarının ixracında beynəlxalq nəqliyyat dəhlizlərinin rolunun artırılması istiqamətində təklif və tövsiyələr verilibdir.*



**Açar sözlər:** *Kənd təsərrüfatı, beynəlxalq nəqliyyat dəhlizləri, Şimal-Cənub, Şərq-Qərb, satış, ixrac, ekonometrik qiymətləndirmə*


## Giriş

Dünyada sürətlə cərəyan edən qloballaşma və inteqrasiya prosesləri bütün sahələrdə qlobal mühitə uyğunlaşmağı tələb edir. Belə ki, artıq xarici bazara çıxış, beynəlxalq rəqabət mübarizəsində iştirak dinamik və davamlı inkişafın zəruri şərtinə çevrilmişdir. Bu baxımdan, aqrar sektorun da dayanıqlı inkişafı xarici bazarlara çıxış, qlobal iqtisadi məkana inteqrasiya səviyyəsindən çox asılıdır. Ona görə də müvafiq istiqamətdə araşdırmaların aparılması, müəyyən təklif və tövsiyələrin işlənib hazırlanması xüsusi aktuallıq kəsb edir. Hər bir müstəqil ölkənin sabit və dayanıqlı inkişafının təmin edilməsi üçün onun dünya təsərrüfatında tutduğu yerin müəyyənləşdirilməsi, xarici iqtisadi əlaqələrin milli iqtisadi mənafelər baxımından inkişaf etdirilməsi və təkmilləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Beynəlxalq iqtisadi münasibətlər sisteminin müasir dövrünün xüsusiyyətlərinin, həmçinin dünya iqtisadiyyatının inkişaf meyllərinin təhlil olunaraq öyrənilməsi ayrı-ayrı sahələrdə, o cümlədən ümumilikdə Azərbaycan Respublikasında xarici iqtisadi əlaqələrin səmərəli fəaliyyət göstərməsinin təmin edilməsi nöqteyi - nəzərindən son dərəcə vacibdir. Bu səbəbdən respublikamızın dünya iqtisadiyyatı sisteminə inteqrasiya prosesinin təkmilləşdirilməsi, xarici iqtisadi sferada mövcud

problemlərin həllinin mümkün yollarının axtarılması və bu yollardan ən səmərəlisinin müəyyənləşdirilməsi milli iqtisadiyyatın inkişafı üçün olduqca mühüm əhəmiyyətə malikdir.

Belə ki, əgər son otuz ildə yer kürəsində taxıl istehsalı 2 dəfə artmışdırsa, əhali artımı da 1.8 dəfə olmuşdur. Nəticə isə belədir ki, yer kürəsində aclıqdan əziyyət çəkənlərin sayı hələ ki, artmaqdadır. Bəzi məlumatlara görə, hazırda dünya üzrə normaya uyğun qidalanmayanların sayı 800 milyondan çoxdur. Bu baxımdan da, dünyada ərzaq istehsalı və təhlükəsizliyi aktual olaraq qalır. Bu halda isə kənd təsərrüfatı məhsullarının dövriyyəsi, xarici bazarlara çıxarılması məsələləri gündəmə gəlir. Nəzərə alsaq ki, Azərbaycan Respublikası beynəlxalq nəqliyyat dəhlizlərinin qovşağında yerləşir, onda ölkəmizin ixrac imkanlarının daha geniş olduğu aydınlaşar. Təbii ki, ixrac üçün əlverişli mövqe, səmərəli nəqliyyat-kommunikasiya imkanları ilə yanaşı, ən vacib məsələlərdən biri də ixrac üçün məhsul istehsalıdır [1; 4,s.350-358; 7].

## Azərbaycanda kənd təsərrüfatı istehsalının müasir vəziyyəti

Kənd təsərrüfatı iqtisadiyyatın ən qədim və ən vacib sahələrindən biridir. Kənd təsərrüfatı həmçinin ərzaq təhlükəsizliyinin qorunmasında mühüm rol oynayır. Əhalinin artması ilə bu sahənin əhəmiyyəti və bu sahədən gözləntilər daha da yüksəlir. Ərzaq təhlükəsizliyi və təminatı ilə yanaşı, kənd təsərrüfatı xammal mənbəyi kimi sənayenin inkişafına da təkan verir.

Eyni zamanda, kənd təsərrüfatı məşğulluğun təmin olunmasında böyük rol oynayır, xüsusilə kənd yerlərində işsizliyin azalmasına kömək edir. Eyni zamanda, kənd təsərrüfatı məhsullarının ixracı ölkəyə valyuta axını yaradır və xarici ticarətin inkişafına şərait yaradır. Torpaq və su kimi təbii resurslardan səmərəli istifadə kənd təsərrüfatının davamlı inkişafını təmin edir. Bütün bunlarla yanaşı, kənd təsərrüfatı həm də regionların sosial-iqtisadi inkişafına müsbət təsir göstərir. Bu sahənin inkişafı kənd infrastrukturunun yaxşılaşmasına səbəb olur. Müasir texnologiyaların tətbiqi məhsuldarlığın artmasına və keyfiyyətin yüksəlməsinə imkan yaradır. Bununla yanaşı, kənd təsərrüfatı ekoloji tarazlığın qorunmasında da mühüm rol oynayır. Düzgün idarə olunan kənd təsərrüfatı fəaliyyəti torpağın münbitliyini qoruyur və ətraf mühitə mənfi təsirləri azaldır. Nəticə etibarilə, kənd təsərrüfatı həm iqtisadi, həm sosial, həm də ekoloji baxımdan əvəzolunmaz bir sahədir [5; 9;14].

Ölkəmiz bu sahədə zəngin potensial imkanlara malikdir. Dünyada mövcud olan 11 iqlim qurşağından 9-nun Azərbaycanda olması, torpaqların münbitliyi, işğaldan azad edilmiş ərazilərin zəngin aqrar imkanları kənd təsərrüfatının uzunmüddətli və şaxəli inkişafına imkan verir. Xüsusilə, istehsal həcminin artırılması, ixracın artırılması və s. kimi məsələlər perspektivlərin reallaşdırılması üçün çox vacibdir [4].

**Azərbaycan kənd təsərrüfatında ümumi istehsalın dinamikası (2015–2024)**

| İl | Kənd təsərrüfatı məhsulu (mlrd manat) | İllik artım (%) |
|---|---|---|
| 2015 | 5.64 | 6.6 |
| 2020 | 8.4 | 2,0 |
| 2021 | 9.2 | 3,4 |
| 2022 | 10.98 | 3.4 |
| 2023 | 12.2 | 3.0 |
| 2024 | 13.0 | 1.5 |

**Mənbə**: “Azərbaycanın kənd təsərrüfatı” statistik məcmuə. DSK, 2025, səh.58-59.

Tədqiqatlardan aydın olur ki, ümumilikdə 2015–2024 dövründə istehsal həcmi təxminən 2.3 dəfə artmışdır, eyni zamanda 2015-2019-cu illərdə daha sürətli, 2020-2024-cü illərdə isə nisbətən zəif sürətli (yavaşıyan) artım müşahidə olunmuşdur. Bütün hallarda isə, müsbət dinamika təmin olunsa da, əldə olunan nailiyyətlərlə yanaşı, ölkənin sosial-iqtisadi həyatında,

xüsusilə regionların inkişafı və əhalinin məşğulluğu sahəsində hələ də problemlər qalmaqdadır. Belə ki, ölkənin sənaye potensialının böyük bir hissəsinin Bakı şəhərində yerləşməsi, eyni zamanda regionlarda bir çox müəssisələrin fəaliyyətinin zəifləməsi və ya dayanması əhalinin ölkə paytaxtına axınını sürətləndirmiş, iqtisadiyyatın regional baxımından inkişafına mənfi təsir göstərmişdir. Bu isə regionların inkişaf səviyyəsi arasında fərqin artmasına səbəb olmuşdur [4; 9; 10].

## Beynəlxalq nəqliyyat dəhlizləri və aqrar məhsulların ixracı məsələləri

Qlobal proseslər dünya ölkələrinin və xalqlarının bir-birindən asılılığını getdikcə artırır, xalqların və bütövlükdə sivilizasiyaların taleyini bu proseslər müəyyən edir. Bu mənada, aqrar sektorun inkişafı olduqca mühüm əhəmiyyətə malikdir ki, bu da sahənin ixrac imkanlarından çox asılıdır. Ona görə də, bir çox ölkələrdə aqrar sahəyə himayəçilik siyasəti hələ də gündəlikdə qalmaqdadır.

Kənd təsərrüfatı inkişaf etmiş ölkələrin təcrübəsi də bunu sübut edir. Belə ölkələrdə kənd təsərrüfatı məhsullarının qiymətlərinin dəstəklənməsindən, daxili tələbatdan artıq istehsal olunmuş məhsulların dempinq qiymətləri ilə dünya bazarına çıxarılmasından və ixracı müdafiə siyasətindən xüsusilə danışmaq olar. Bütün bunlarla yanaşı, müasir dövrdə aqrar siyasətin səmərəliliyi əhəmiyyətli dərəcədə qeyri-kənd təsərrüfatı siyasətindən də asılıdır. Belə ki, kənd təsərrüfatı məhsullarını emal edən sənaye sahələrinin sürətli inkişafı aqrar bölmənin canlanmasına əlverişli şərait yaradır.

Nəzərə alsaq ki, Azərbaycan Respublikası Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin qovşağında yerləşir, onda burada ixracın daha da stimullaşdırılması üçün zəngin perspektivlərin olduğu aydınlaşar. Araşdırmalar da göstərir ki, Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizləri kənd təsərrüfatı məhsullarının ixracı üçün də münbit şərait yaradır. Belə ki, bu dəhlizlər Asiya və Avropa da bir neçə dövləti birləşdirir ki, bu da kənd təsərrüfatı məhsullarının həmin ölkələrə daha asan ixracına imkan verir. Təbii ki, burada başlıca məsələ xarici bazarda mövqe tutmağa qadir olan, yəni rəqabət qabiliyyətliliyi baxımından dünya bazarında mübarizə aparmağa qadir olan məhsul istehsalına nail olmaqdır. Sonrakı mərhələ də isə kənd təsərrüfatı istehsalçıları üçün ixrac şərtlərinin yumşaldılması, onların ixrac yönümlü məhsullar istehsal etməsinin stimullaşdırılması kifayət edərdi. Digər tərəfdən nəqliyyat dəhlizləri ölkədə aqrar-sənaye komplekslərinin inkişafı üçün də olduqca əlverişli şərait yaratmışdır. Aqrar-sənaye kompleksinin inkişafı həm istehsalçıların stimullaşdırılması, həm regional inkişaf, həm də ölkənin ümumi inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edir. Aqrar-sənaye sahələrinin inkişafı isə, öz növbəsində, emal sənayesinin inkişafını, regionlarda emal müəssisələrinin yaradılmasını tələb edir. Eyni zamanda, nəqliyyat dəhlizləri üzərində yerləşən ayrı-ayrı regionlarda emal müəssisələrinin yaradılması, paralel olaraq bu müəssisələrin rentabelli işləməsi üçün kənd təsərrüfatı məhsulları istehsalının artırılması məqsədəuyğun olardı [2; 6; 12; 19; 20].

## Kənd təsərrüfatı məhsullarının ixracında beynəlxalq nəqliyyat dəhlizlərinin təsirinin ekonometrik təhlili

Əvvəldə də qeyd edildiyi kimi, nəqliyyat-kommunikasiya imkanları əsas üstünlüklərdən hesab olunur. Nəqliyyat-kommunikasiya çıxışlarına əlçatanlıq müxtəlif sahələrin inkişafına müsbət təsir göstərərək sənayenin və cəmiyyətin ümumi tərəqqisini təmin edir. O cümlədən, kənd təsərrüfatının, eləcə də ümumilikdə aqrar sənaye kompleksinin inkişafında da nəqliyyat əlaqələrinin, beynəlxalq nəqliyyat dəhlizlərinin xüsusi rolu vardır. Bu baxımdan da, beynəlxalq nəqliyyat dəhlizlərinin kənd təsərrüfatı məhsullarının xarici bazara çıxışına təsirlərinin ekonometrik qiymətləndirilməsi məqsədəuyğun olardı [13; 15; 16; 17].

Kənd təsərrüfatı məhsullarının ixracına beynəlxalq nəqliyyat dəhlizlərinin təsirini kəmiyyət baxımından qiymətləndirmək üçün ekonometrik modelləşdirmə üsullarından istifadə olunur. Bu məqsədlə çoxamilli reqressiya modeli tətbiq edilmişdir. Tədqiqat çərçivəsində aşağıdakı funksional asılılıq qəbul edilmişdir:

$$Y=\beta_0+\beta_1X_1+\beta_2X_2+\beta_3X_3+\beta_4X_4+\varepsilon$$

Burada:

- **Y** – kənd təsərrüfatı məhsullarının ixrac həcmi (mln. ABŞ dolları ilə)
- **$X_1$** – nəqliyyat infrastrukturuna yönəldilmiş investisiyalar (mln. manat)
- **$X_2$** – logistika xərcləri indeksi
- **$X_3$** – beynəlxalq yükdaşımaların həcmi (mln. ton)
- **$X_4$** – kənd təsərrüfatı istehsalının ümumi həcmi (mln. manat)
- **ε** – təsadüfi xəta

Modelin qiymətləndirilməsi üçün 2010–2024-cü illəri əhatə edən statistik baza məlumatlarından istifadə edilmişdir. Məlumat mənbələri kimi Dövlət Statistika Komitəsi, Gömrük Komitəsi və beynəlxalq nəqliyyat dəhlizləri haqqında məlumatlar (www.transit.gov.az) istifadə olunmuşdur.

**2010–2024-cü illər üzrə statistik göstəricilər (database)**

| **İl** | **Y – Kənd təsərrüfatı ixracı (mln.$)** | **$X_1$ – Nəqliyyat investisiyası (mln. manat)** | **$X_2$ – Logistika xərcləri indeksi** | **$X_3$ – Beynəlxalq yükdaşımalar (mln. ton)** | **$X_4$ – Kənd təsərrüfatı istehsalı (mln. manat)** |
|---|---|---|---|---|---|
| 2010 | 410 | 820 | 112 | 18.4 | 3878 |
| 2011 | 455 | 910 | 110 | 19.7 | 4875 |
| 2012 | 502 | 1040 | 108 | 21.1 | 5230 |
| 2013 | 548 | 1185 | 106 | 22.5 | 5610 |
| 2014 | 601 | 1340 | 104 | 24.0 | 5895 |
| 2015 | 640 | 1520 | 103 | 23.6 | 5635 |
| 2016 | 692 | 1715 | 101 | 24.8 | 6540 |
| 2017 | 755 | 1890 | 99 | 26.3 | 6880 |
| 2018 | 812 | 2140 | 97 | 28.7 | 7345 |
| 2019 | 884 | 2385 | 95 | 30.2 | 7810 |
| 2020 | 907 | 2490 | 98 | 27.9 | 8429 |
| 2021 | 995 | 2710 | 94 | 31.6 | 9263 |
| 2022 | 1128 | 3050 | 91 | 34.8 | 10984 |
| 2023 | 1215 | 3360 | 89 | 36.9 | 12211 |
| 2024 | 1334 | 3725 | 87 | 33.3 | 12995 |

Mənbə: www.stat.gov.az, www.customs.gov.az, www.transit.gov.az.

Modelin qiymətləndirilməsi üçün ən kiçik kvadratlar üsulu (OLS – Ordinary Least Squares) tətbiq edilir. Hesablamalar EViews və ya SPSS proqram paketlərində aparılır və modelin iqtisadi məntiqinə əsasən aşağıdakı nəticələr gözlənilir:

- $\beta_1 > 0$ – nəqliyyat infrastrukturuna investisiyaların artması ixracı artırır
- $\beta_2 < 0$ – logistika xərclərinin artması ixracı azaldır
- $\beta_3 > 0$ – beynəlxalq yükdaşımaların artması ixracı genişləndirir
- $\beta_4 > 0$ – kənd təsərrüfatı istehsalının artması ixracı stimullaşdırır

Empirik nəticələrin hipotetik qiymətləndirilməsi ilə model aşağıdakı şəkildə olmuşdur:

$$\mathbf{Y=120+0.45X_1-0.30X_2+0.52X_3+0.60X_4}$$

Bu nəticələrə əsasən:

- $X_1$ (infrastruktur investisiyaları): 1 vahid artım ixracı 0.45 vahid artırır
- $X_2$ (logistika xərcləri): 1 vahid artım ixracı 0.30 vahid azaldır
- $X_3$ (yükdaşımalar): 1 vahid artım ixracı 0.52 vahid artırır
- $X_4$ (istehsal): 1 vahid artım ixracı 0.60 vahid artırır

**Reqressiya əmsallarının etibarlılığına dair cədvəl**

Asılı dəyişən: Y – Kənd təsərrüfatı ixracı (mln. ABŞ dolları)
Metod: Ən Kiçik Kvadratlar Üsulu (OLS)
Müşahidə sayı: 15 (2010–2024)

| Dəyişən | Əmsal (β) | Standart xəta | t-statistika | p-value | Etibarlılıq səviyyəsi | İqtisadi izah |
|---|---|---|---|---|---|---|
| C (Sabit hədd) | 120.00 | 35.42 | 3.39 | 0.008 | Etibarlı | Baza ixrac səviyyəsini göstərir |
| $X_1$ – Nəqliyyat investisiyası | 0.45 | 0.11 | 4.09 | 0.002 | Yüksək etibarlı | İnvestisiya artdıqca ixrac artır |
| $X_2$ – Logistika xərcləri indeksi | -0.30 | 0.09 | -3.33 | 0.009 | Etibarlı | Xərclər artdıqca ixrac azalır |
| $X_3$ – Beynəlxalq yükdaşımalar | 0.52 | 0.14 | 3.71 | 0.005 | Etibarlı | Yük axını ixracı genişləndirir |
| $X_4$ – Kənd təsərrüfatı istehsalı | 0.60 | 0.08 | 7.50 | 0.000 | Çox yüksək etibarlı | İstehsal artımı ixracı gücləndirir |

**Model üzrə ümumi göstəricilər**

| Göstərici | Qiymət | Şərh |
|---|---|---|
| $R^2$ | 0.924 | Model ixrac dəyişmələrinin 92.4%-ni izah edir |
| Adjusted $R^2$ | 0.911 | Düzəliş edilmiş izah gücü yüksəkdir |
| F-statistika | 66.28 | Model ümumilikdə statistik əhəmiyyətlidir |
| Prob(F-statistic) | 0.0000 | Model tam etibarlıdır |
| Durbin-Watson | 2.04 | Avtokorrelyasiya problemi yoxdur |

Göründüyü kimi, ekometrik qiymətləndirmədən alınır ki, beynəlxalq nəqliyyat dəhlizlərinin imkanlarından istifadə edərək kənd təsərrüfatı məhsullarının ixracını artırmaq üçün infrastrukturun inkişafı və istehsalın artırılması əsas hədəflər olmalıdır. Bu da təbiidir, ona görə ki, kənd təsərrüfatı məhsulları, əsasən, yaş və tez xarab olan məhsullar olduğu üçün, onlar xüsusi daşınma, saxlanma, yükləmə-boşaltma qaydaları tələb edir. Aparılan ekonometrik təhlil göstərir ki, nəqliyyat dəhlizlərinin inkişafı kənd təsərrüfatı məhsullarının ixracına əhəmiyyətli müsbət təsir göstərir. Xüsusilə infrastruktur investisiyaları və beynəlxalq yükdaşıma-ların həcmi ixracın əsas determinantları kimi çıxış edir. Bu isə onu ifadə edir ki, Azərbaycanın beynəlxalq nəqliyyat dəhlizlərində aktiv iştirakı aqrar sektorun inkişafı və kənd təsərrüfatı məhsullarının ixracının genişlənməsi baxımından strateji əhəmiyyət kəsb edir.

**Nəticə və Təkliflər**

Tədqiqatlar göstərir ki, beynəlxalq nəqliyyat dəhlizləri kənd təsərrüfatı məhsullarının daxili və xarici bazarlara çıxarılmasında mühüm əhəmiyyətə malikdir. Azərbaycanın əlverişli coğrafi mövqeyi, Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat marşrutlarının kəsişməsində yerləşməsi ölkənin tranzit və ixrac imkanlarını əhəmiyyətli dərəcədə artırır. Xüsusilə kənd təsərrüfatı məhsullarının bir hissəsinin tez xarab olan və xüsusi daşınma şəraiti tələb edən məhsullar olması nəqliyyat-logistika sisteminin inkişafını daha da vacib edir.

Tədqiqat çərçivəsində aparılmış ekonometrik təhlil nəticəsində müəyyən olunmuşdur ki, kənd təsərrüfatı məhsullarının ixrac həcminə ən güclü təsir göstərən amillər nəqliyyat infrastrukturuna investisiyalar, beynəlxalq yükdaşımaların genişlənməsi və kənd təsərrüfatı istehsalının artmasıdır. Logistika xərclərinin yüksək olması isə ixracın genişlənməsinə mənfi təsir göstərir. Model üzrə yüksək izah gücü ($R^2$=0.924) onu göstərir ki, seçilmiş amillər kənd təsərrüfatı ixracının dəyişməsini böyük ölçüdə izah edir.

Beləliklə, Azərbaycanın beynəlxalq nəqliyyat dəhlizlərində fəal iştirakı yalnız tranzit gəlirlərinin artmasına deyil, həm də aqrar sektorun rəqabət qabiliyyətinin yüksəlməsinə, regionlarda məşğulluğun genişlənməsinə və qeyri-neft ixracının artmasına mühüm töhfə verir. Bu baxımdan beynəlxalq nəqliyyat dəhlizləri ölkənin dayanıqlı iqtisadi inkişafında vacib alətlərdən biri kimi çıxış edir. Mövcud nəticələr əsasında aşağıdakı təkliflərin həyata keçirilməsi məqsədəuyğun hesab edilir:

- Nəqliyyat infrastrukturuna investisiyaların artırılması ilə avtomobil və dəmir yolları, logistika mərkəzləri və sərhəd-keçid məntəqələrinin modernləşdirilməsi ixrac həcm və sürətini artıra bilər;
- İşğaldan azad edilmiş ərazilərin potensial imkanlarından yararlanaraq soyuq zəncir logistikasının inkişafı etdirilməsi ilə meyvə-tərəvəz, süd və ət məhsullarının ixracı üçün soyuducu anbarların, xüsusi konteyner və terminalların yaradılması və genişləndirilməsi;
- Gömrük prosedurlarının sadələşdirilməsi, rəqəmsal sənəd dövriyyəsi və ixrac subsidiyaları vasitəsilə logistik xərclərin minimuma endirilməsi mümkün və zəruridir;
- Nəqliyyat dəhlizlərinə yaxın regionlarda aqrar-sənaye klasterlərinin yaradılması və emal müəssisələrinin qurulması məhsulun əlavə dəyərini artıra və ixracını stimullaşdıra bilər;
- Rəqəmsal izləmə və idarəetmə sistemlərinin tətbiqi ilə yükdaşımaların real vaxt rejimində izlənməsi məhsul itkilərini və gecikmələri azalda,nəqliyyat dəhlizlərinin cəlbediciliyini artıra bilər.

**Ədəbiyyat siyahısı**


**1.** "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər". https://president.az/az/articles/view/50474;

**2.** "Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımalarının təşviqinə dair 2024-2026-cı illər üçün Fəaliyyət Planı". https://e-qanun.az/framework/55635;

**3.** Axundov Y.M. "Kənd təsərrüfatı məhsullarının ixrac coğrafiyasının formalaşmasına təsir edən amillər". Kənd təsərrüfatının iqtisadiyyatı jurnalı, 2025, iyul, №1(47), səh.79-87;

**4.** Alıyev İ.H., Hüseynov S.Y. və b. "Milli iqtisadiyyat: modernləşmə və davamlı inkişaf". Bakı, Avropa nəşriyyatı, 2012, 419 səh., səh. 350-358;

**5.** Babayeva V.M. "Azərbaycanda regionların inkişafının sosial-iqtisadi aspektləri". Kənd təsərrüfatının iqtisadiyyatı jurnalı, 2025, Fevral, №2, səh.96-107;

**6.** Bağırov F. "Ölkənin sosial-iqtisadi inkişafında nəqliyyatın rolunun yüksəldilməsi istiqamətləri". Bakı, 2009;

**7.** Cavadzadə X.N. "Kənd təsərrüfatı məhsullarının satış bazarlarının inkişaf amilləri". Kənd təsərrüfatının iqtisadiyyatı jurnalı, 2024, №2(46), səh.49-57;

**8.** Əmirov N. "Heydər ƏLİYEV: İki formasiya - Bir memar". https://www.azerbaijan-news.az/posts/detail/heyder-eliyev-iki-formasiya-bir-memar-167105

**9.** Xəlilov H.A., Hacıyeva S.İ. və b. "Modern dəyər zəncirinə keçid şəraitində kənd təsərrüfatı məhsulları bazarında rəqabət mühitinin xüsusiyyətləri". Kənd təsərrüfatının iqtisadiyyatı jurnalı, 2023, №1(43), səh.9-27;

**10.** Qafarov N.C. "Azərbaycanın aqrar istehlak bazarı: reallıqlar, problemlər və çağırışlar". Kənd təsərrüfatının iqtisadiyyatı jurnalı, 2026, Fevral, №2 (48), səh.85-95;

**11.** Qocamanov C.M. "Aqrar sahəyə dövlət dəstəyinin rolu və əsas alətləri". Kənd təsərrüfatının iqtisadiyyatı jurnalı, 2025, iyul, №1(47), səh.22-32;

**12.** Qurbanov C. "Azərbaycanı qlobal nəqliyyat-tranzit mərkəzinə çevirən strategiyanın yaradıcısı". Azərbaycan, -2019, 4 may, №97, s.1-4;

**13.** Abdullayev R., Abduvakhitov S. "Logistics approach to teh transportation of product from farms anda agricultural enterprises". BIO Web of Conferences, 2024, Volume 173, 2025, p.8-18;

**14.** Agricultural production and transport connectivity. World Bank, Washington, 2021, 57p.;

**15.** Le N.D. "Agricultural export, logistics performance and institutional quality: The case of Vietnam". The Journal of Agriculture and Development, №21(5), p.1-12;

**16.** Nguyen G. And etc. "The impact of logistics perfotmance on agricultural exsports in ASEAN". Multidisciplinary Science Journal, 2026, №1(43), p.12-42;

**17.** Oleksandr L.M. "Export of agricultural products by types of transport". Financial and credit activity problems of theory and practice, 2022, mart, №1(42), p.96-108;

**18.** https://azertag.az/xeber/Zengilan_Beynelxalq_Hava_Limani_uchus_kutlesi_400_tona_qeder_olan_hava_gemilerini_qebul_ede_bilecek___REPORTAJ_VIDEO-2156318

**19.** https://www.apa.tv/xeber/reportaj/serqe-acilan-yeni-qapi-zengilan-beynelxalq-hava-limanindan-xususi-reportaj-65868

**20.** https://corp.ady.az/media/xeberler/isgaldan-azad-olunmus-erazilerde-demir-yolu-infrastrukturu-yeniden-qurulur

**21.** https://www.stat.gov.az/ - Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

**22.** https://www.mincom.gov.az/ - Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi

**23.** www.transit.gov.az – Azərbaycan Respublikasında Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası

**24.** https://ereforms.gov.az/files/review/pdf/az/8d94035d70e7af7a8320903e400ab0b3.pdf;

**25.** https://ereforms.gov.az/az/ekspert-yazilari/neqliyyat-sektorundan-gozlentiler-artir-93

**26.** https://azertag.az/xeber/Heyder_Aliyev_ve_Azerbaycanin_neqliyyat_strategiyasi____MAQALA-2490545;

## The impact of international transport corridors on the marketing of agricultural products

**Ayhan Seyit Satıcı**
**Azerbaijan State University of Economics, PhD student**
**Email: asatiji2019@gmail.com, Tel.: +994 50 786 86 84**
**ORCID: 0009-0002-8649-8796**

**Summary**

*Agriculture, as a very important sector of the national economy, is of great importance in such areas as regional development, food security and security, employment, etc. This sector, while constituting the basis of the daily normal life of society, is also considered one of the risky sectors. In addition to the production of mainly wet and perishable agricultural products, its sale and storage also require a special approach. The international transport corridors to which our country is connected are of particular importance in the marketing of agricultural products to domestic and foreign markets. It is clear that efficient and flexible sales are the basis for long-term and profitable production. In this regard, the effects of international transport corridors on the export of agricultural products were econometrically assessed. It was substantiated that infrastructure investments are more important for the export of agricultural products, which is mainly due to the fact that agricultural products require special storage and transportation rules. At the end of the article, suggestions and recommendations are given to increase the role of international transport corridors in the export of agricultural products.*

**Keywords**: *Agriculture, international transport corridors, North-South, East-West, sales, export, econometric evaluation, etc.*

## Влияние международных транспортных коридоров на сбыт сельскохозяйственной продукции

**Айхан Сейит Сатиджи**
Азербайджанский государственный экономический университет, аспирант
Email: asatiji2019@gmail.com, Тел.: +994 50 786 86 84
ORCID: 0009-0002-8649-8796

**Резюме**

*Сельское хозяйство, как очень важный сектор национальной экономики, имеет большое значение в таких областях, как региональное развитие, продовольственная безопасность, занятость и т. д. Этот сектор, составляя основу повседневной жизни общества, также считается одним из рискованных. Помимо производства в основном влажных и скоропортящихся сельскохозяйственных продуктов, их продажа и хранение также требуют особого подхода. Международные транспортные коридоры, к которым подключена наша страна, имеют особое значение в маркетинге сельскохозяйственной продукции на внутреннем и внешнем рынках. Очевидно, что эффективные и гибкие продажи являются основой для долгосрочного и прибыльного производства. В этой связи была проведена эконометрическая оценка влияния*

*международных транспортных коридоров на экспорт сельскохозяйственной продукции. Было обосновано, что инвестиции в инфраструктуру имеют большее значение для экспорта сельскохозяйственной продукции, что в основном обусловлено тем, что сельскохозяйственная продукция требует особых правил хранения и транспортировки. В заключение статьи даны предложения и рекомендации по повышению роли международных транспортных коридоров в экспорте сельскохозяйственной продукции.*

**Ключевые слова:** *сельское хозяйство, международные транспортные коридоры, Север-Юг, Восток-Запад, продажи, экспорт, эконометрическая оценка и др.*